Ədəbiyyat qəzeti

5 dekabr / 2020

# İSLAM SADIĞIN "TANRI DİLİ, TÜRK DİLİ, ŞUMER DİLİ" KİTABI İŞIQ ÜZÜ GÖRDÜ

Bu günlərdə filologiya elmləri doktoru, şumerşünas İslam Sadığın "Tanrı dili, Türk dili, Şumer dili" (Azərnəşr, Bakı. 2020. 464 səh.) kitabı nəfis tərtibatla işıq üzü görüb. Kitab AMEA Nəsimi adına Dilçilik İnstitutu Elmi Şurasının 14 mart 2012-ci il tarixli (protokol № 4) qərarı ilə nəşr olunub.

Kitabda Şumer və Türk dillərinin biçimliliyi (aqlütinativliyi), onların hər ikisində Ahəng və Heca qanununun möcvudluğu haqqında zəngin bilgilər verilmişdir, çünki bunlar həmin dillərin qohumluğundan danışmağa əsas verən ilk vacib oxşarlıqlardır.

Kitabda Şumer dilinin fonetikası, morfologiyası, sintaksisi və leksikası Türk dilinin materialları ilə qarşılıqlı tutuşdurmalar aparılmaqla öyrənilmişdir. İki dilin qohumluğu üçün tələb olunan üç mühüm şərtə - hər iki dildə qohumluq, say və bədən üzvlərinin adlarını bildirən eyni terminlərə aid çox tutarlı və inandırıcı örnəklər verilmişdir. İslam Sadıq bunlarla yetərlənməyib, Şumer və




Türk dillərinin qohumluğunu təsdiqləmək üçün irəli sürülən şərtlərin sayını 30-a çatdırıb. Bunlardan hər iki dildə eyni omonimlərin, kök feillərin, ismin halları və hal şəkilçilərinin üzə çıxarılması bu iki dilin qohumluğunu təsdiqləyən təkzibolunmaz arqumentlərdir.

Kitabdakı "Şumer və Türk dillərində ilk sözlər və səsartımı yolu ilə söz yaradıcılığı", "Şumer və Türk dillərində eyni semantik söz yuvaları", "Şumer və Türk dillərində hecaların təkrarlanması yolu ilə söz yaradıcılığı", "Şumer Tanrı adlarının Türk dilində semantik açımı", "Bilqamıs" dastanında onomastik türkizmlər" başlıqlarında verilmiş örnəklər və onların qarşılıqlı tutuşdurma yolu ilə təhlili bu iki dilin qohumluğunu aydın şəkildə göstərir.

Həmçinin kitabda 1000-ə yaxın sözün eyniliyi və ya oxşarlığı üzə çıxarılmışdır ki, digər arqumentlərlə birlikdə onlar da Şumer və Türk dillərinin qohumluğunu təsdiqləmək baxımından olduqca dəyərlidir.

İslam Sadıq Şumer və türk dillərinin qohumluğunu təsdiqləyən çoxsaylı arqumentləri üzə çıxarıb təhlil etdikdən sonra ondan çox kök feilin eyniliyinə söykənərək yazır: "Bu feillər Şumer və Türk dillərinin hər ikisi üçün ortaq sözlərdir. Onların heç birinə bu feillər kənardan, yad dillərdən gəlməyib. Bu da kitabda verilmiş digər arqumentlərlə birlikdə Şumer və Türk dillərinin doğrudan da eyni dil olduğunu təsdiqləyir. Bütün bunlardan sonra Şumer və Türk dillərinin eyniliyi, yaxud qohumluğu müzakirə və mübahisə mövzusu olmamalıdır".

İslam Sadığın kitabında Şumer və Türk dillərinin qohumluğuna aid verilmiş tutarlı və inandırıcı arqumentlər o qədər çoxdur ki, onları oxuduqdan sonra bu iki dilin qohum olmadığını söyləməyə əsas qalmır.

***Pərinaz Sadıqlı***

*Tarix üzrə fəlsəfə doktoru*